***❑ Ölkəmizdə müasir təhsil quruculuğu istiqamətində ardıcıl olaraq uğurlu addımlar atılır, dünya təhsil sisteminə inteqrasiya sürətlənir. Prezident İlham Əliyevin Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarına təbrik məktubunda vurğulanıb ki, sosial siyasətimizin prioritetlərindən biri zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır. Bilik iqtisadiyyatına keçid və ölkənin modernləşməsi üçün həlledici amil kimi insan kapitalının inkişafını təmin edəcək "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" uğurla icra olunur.***



# *Masallı:* Dövlət qayğısı təhsildə uğurları artırır

Respublika təhsil şəbəkəsinin ən böyük struktur bölmələrindən biri də Masallıdır. Bu rayonda 94 tam, orta və ibtidai məktəb, bir neçə məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərir. Təhsilə yüksək qayğı, məktəblərin yenidən qurulması, texniki vasitə və avadanlıqla təminatına dair qəbul olunmuş proqramlar Masallı təhsilinə də təsirsiz qalmayıb.

Masallı 1930-cu ildə inzibati rayon kimi yaradılsa da, bu bölgədə təhsil ocaqlarının təşkili daha qədim vaxtlara təsadüf edir. Burada ilk məktəb hələ 1860-cı ildə Nikolayevka (indiki Kalinovka) kəndində açılıb, 1896-cı ildə Qızılağacda, 1930-cu ildə Mahmudavarda məktəb təşkil olunub. Respublikanın qabaqcıl təhsil ocaqları sırasında Masallı ünvanlı məktəblərin də adı çəkilir. Gənc nəslə fundamental biliklərin əsaslarını yeni üsullarla aşılamağa çalışan, informasiya texnologiyalarının mənimsədilməsi, şagirdlərin vətənpərvərlik ruhunun artırılması işində yüksək nəticələr qazanan məktəb və müəllimlər bu rayonda da yetərincədir.

**Rayon təhsil şöbəsinin müdiri Tariyel Əkbərovun dedikləri:**

– Müəllimlərin XV qurultayında son beş ildə milli təhsilimizdə aparılan islahatların nəticələri, həyata keçirilən layihələr barədə ətraflı məlumat verilərək bildirildi ki, Azərbaycanın təhsil sahəsində göstəriciləri dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Möhtərəm Prezidentimiz İlham Əliyev bu sahənin inkişafına daim xüsusi qayğı ilə yanaşır. İftixarla xatırlayırıq ki, dövlət başçısı sentyabr ayında Masallıya növbəti səfəri zamanı ictimaiyyətlə görüşündə təhsilə qayğıdan da danışaraq dedi ki, rayonda 40-dan çox məktəb tikilməsinə və əsaslı təmir edilməsinə baxmayaraq, hələ də təmirə ehtiyacı olan məktəblər var, biz onları da həll edəcəyik.

Hazırda Masallıda modul tipli məktəblərin inşasına üstünlük verilir. Belə ki, cari tədris ilində Xallıcalı, Təkdam, Şıxlar 2 saylı və Bala Təklə kənd ümumi orta məktəbləri üçün belə tipli məktəblər tikilir. Göyəçöl kəndində isə 260 yerlik yeni müasir tipli məktəb binasının tikintisi davam etdirilir. Təhsilimizin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Onun təşəbbüsü ilə irəli sürülən "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və digər layihələrin uğurla həyata keçirilməsi Masallıda təhsil sisteminə də öz təsirini göstərmişdir.

Bu il Masallıdan 500 nəfər tələbə adını qazanmışdır. Qəbul imtahanlarında 600-dən yuxarı bal toplayan abituriyentlərimizin sayı 34 nəfərdir. Onların tən yarısı qızlardır. 500-600 arası bal toplayan abituriyentlərin sayı isə 86-dır. Müqayisə üçün qeyd edək ki, keçən tədris ilində 600-dən yuxarı bal toplayan abituriyentlərin sayı 30, 500-600 arası bal toplayan abituriyentlərin sayı isə 62 olmuşdur. Sevindirici haldır ki, bu tədris ilində məzunları ali məktəblərə sənəd verməyən bir məktəbimiz belə olmamışdır.

Ali məktəblərə qəbulun nəticələrinə görə şəhər 1 və 3 nömrəli məktəbləri,"Dəfinə" məktəb-liseyi, Hişkədərə, Türkoba, Boradigah 2 nömrəli, Yeyənkənd, Təzə Alvadı 1 nömrəli, Eminli tam orta məktəbləri fərqlənmişdir. Orta ixtisas məktəblərinə - kolleclərə daxil olan məzunlarımızın sayı da çox olmuşdur. Məktəblərdə tədrisin keyfiyyəti ilə əlaqədar ilboyu monitorinqlər keçirilmişdir. Bu tədris ilində birinci siniflərə 3385 şagird qəbul edilib ki,onların təlim-tərbiyəsi ilə 167 müəllim məşğul olur. Şagirdlərin yeni məktəblərə cəlb edilməsi üçün RİH-nin köməkliyi ilə tədbirlər görülmüş, nəqliyyat vasitəsi ayrılmış və dərsə davamiyyət təmin edilmişdir.

"Dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əmək haqqının artırılması haqqında" Azərbaycan Prezidentinin müvafiq sərəncamına uyğun olaraq ciddi addımlar atılır. Müəllimlərin işə qəbulu üzrə aparılan imtahanların I turunda keçmiş 82 nəfər, II turunda keçmiş 6 nəfər rayonun ümumtəhsil məktəblərinə təyinat almışdır. Boş qalan yerlərə müsabiqənin III turunda uğur qazanmış namizədlər yerləşdiriləcək.

Masallı RİH başçısı Rafil Hüseynov vaxtaşırı məktəb kollektivləri ilə görüşür, şöbənin keçirdiyi tədbirlərdə iştirak edir. Qabaqcıl məktəblər, müəllim və şagirdlər mükafatlandırılır. Yeni dərs ilinin başlanması ilə əlaqədar keçirilən xeyriyyə aksiyasında 50 aztəminatlı ailənin uşaqlarına məktəbli geyimləri və digər hədiyyələr verilib. Humanitar aksiya çərçivəsində rayonda aztəminatlı ailələrdən olan daha 320 uşağa məktəbli geyimlərinin veriləcəyi bildirilib.

Sentyabr ayında rayonda ali məktəblərə qəbul imtahanları zamanı yüksək bal toplamış tələbələrlə yaddaqalan görüş keçirilib. Qəbulda böyük uğur qazanan rayon məzunlarından Eltun Müseyibzadə, İradə Fəttayeva, Aytən Qüdrətli, Pakizə Qasımova, Fidan Nağıyeva, Aynur Əliyeva, Təhminə Məmmədova, Aytən Budaqova, Şəfa Əliyeva, Səma İsmayılova, Cəmilə Allahyarlı, Elvira Abıyeva, Aytac Allahverdiyeva, Aydan Fərəcova, Səfurə Dadaşova, Rüqəyyə Abıyeva, Zəhra Rəhimli və digərlərini Milli Məclisin deputatı Qənirə Paşayeva, "Regional hüquqi və iqtisadi maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova, "Tərəqqi" medallı Əməkdar müəllim Mirqabil Hüseynov və başqaları təbrik ediblər. Qeyd olunub ki, bu il təkcə şəhər 1 nömrəli məktəbin 55 məzunu tələbə adını qazanıb, qəbul imtahanlarında fərqlənənlərin 171-i, başqa sözlə, üçdəbiri məhz qızlar olub. Toplantıda çıxış edən tələbələr onlara bəslənən ümidləri doğruldacaqlarına söz veriblər. Tələbələrə fəxri fərmanlar və qiymətli hədiyyələr verilib.







Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə II qrant müsabiqəsi" çərçivəsində qalib olmuş Mahmudavar kənd tam orta məktəbinin həyata keçirdiyi "Qızlarımız təhsildə" layihəsinə isə bugünlərdə yekun vurulub. Bu və ya digər səbəblərdən məktəbdən uzaqlaşmış qızların yenidən təhsilə cəlb olunması təqdir edilib. Bildirilib ki, layihənin ilk mərhələsində hədəf olaraq seçilmiş 20 kənd məktəbində seminarlar keçirilib. Seminarlarda ümumən 412 məktəbli qız iştirak edib.

İkinci mərhələdə seminarlarda seçilmiş 40 fəal qız birgünlük ekskursiyaya cəlb olunub. Həyata keçirilən bu layihənin özündə çox vacib məsələləri əks etdirildiyi qeyd edilib. Sonda layihə çərçivəsində çəkilmiş "Sonradan" adlı sosial videoçarx təqdim olunub.

Masallı Rayon Gənclər və İdman İdarəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və "Dövlət Bayrağı Günü"nə həsr olunmuş inşa yazı müsabiqələri keçirilib. Bundan məqsəd Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinin davam etdirilməsinə, məktəblilər arasında dövlət atributlarının təbliğinə nail olmaqdır. Müsabiqələrə yüzlərlə şagird qatılıb.

Yeri gəlmişkən, Masallı məktəbliləri olimpiada və fənn müsabiqələrində də yüksək nəticələr qazanırlar. 2018-ci ilin mart ayında Lənkəran Dövlət Universitetində keçirilən fənn olimpiadasında şəhər 4 saylı tam orta məktəbinin X sinif şagirdləri Cavid Rüstəmov və Ağa Ağayev riyaziyyat üzrə müvafiq olaraq I və III yerləri tutublar. Qızılağac 1 saylı tam orta məktəbinin IX sinif şagirdi Toğrul Səfərli respublika fənn olimpiadasında coğrafiya, Qəriblər kənd tam orta məktəbinin XI sinif şagirdi Məhəmmədəli Məmmədov isə fizika üzrə III yerə layiq görülüb. Ərkivan qəsəbə 1 saylı tam orta məktəbin XI sinif şagirdi Arzu Əliyeva "Ədəbiyyat biliciləri" respublika müsabiqəsində I yerə layiq görülüb və orta məktəbi qızıl medalla bitirib. Bəyalı Məmmədov adına Böyük Xocavar kənd tam orta məktəbinin IX sinif şagirdi İqrar Feyzullayev ulu öndərin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin respublika mərhələsində uğurla çıxış edərək II dərəcəli diploma layiq görülüb.

Miyankü kənd tam orta məktəbinin direktoru Xudaqulu Tahirov və Bədələn kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Məhbubə Şahbazova "Pedaqoji mühazirələr" müsabiqəsinin final mərhələsində iştirak ediblər.

Artıq bir neçə ildir ki, təhsilin inkişafı və innovasiyalar Qrant müsabiqəsi keçirilir. Mahmudavar kənd tam orta məktəbinin direktoru Kinəxanım Əliyeva, Təzəkənd kənd tam orta məktəbinin müəllimi Peyman Nəhmətov və Türkoba kənd tam orta məktəbinin müəllimi Şəhriyar Məmmədov müsabiqənin qalibləri olublar. Böyük Xocavar kənd tam orta məktəbinin direktoru Abusət Zeynalov "Tərəqqi" medalı ilə təltif edilib. Əhmədli kənd ümumi orta məktəbinin müəllimi Ülvi Məhərrəmov və Qəriblər kənd tam orta məktəbinin müəllimi Emin Bayramov Təhsil Nazirliyinin fəxri fərmanına layiq görülüblər.

Oktyabr ayında Təhsil Nazirliyinin xəttilə Masallı rayonuna mediatur təşkil olunub. Mediaturun keçirilməsində məqsəd cari tədris ilində yüksək balla işə qəbul olunan müəllimlərlə görüşmək, eləcə də onların çalışdıqları məktəblərlə tanış olmaq idi. İştirakçılar Masallı şəhər Rafiq Əlihəsənov adına 1 nömrəli tam orta məktəbində oldular. Onlara məlumat verilib ki, bu il müsabiqədən uğurla keçərək fəaliyyətə başlayan 82 gənc müəllimdən 6 nəfəri bu məktəbdə çalışır. Media nümayəndələri məktəbin yüksək bal toplamış müəllimlərinin dərs prosesini izləyiblər. Sonra onlar Ərkivan qəsəbəsindəki Zahir Nəcəfov adına 2 nömrəli tam orta məktəbdə oldular. Məktəbin ibtidai sinif müəlliminin dərsində iştirak ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin təhsil müəssisələrində "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə 100 min ağac" devizi altında keçirilən ağacəkmə kampaniyası Masallıda da sevinclə qarşılanıb. Yaşıllaşdırma marafonu çərçivəsində təşkil olunan iməcilikdə Masallı Dövlət Regional Kollecinin tələbələri, Tüklə, Hişkədərə, Türkoba, Bədələn, Qızılavar məktəblərinin şagirdləri yaxından iştirak ediblər. Gənclər ağac əkməklə bərabər, əvvəllər əkilmiş ağac və bəzək kollarına, yaşıllıqlara da qulluq göstərib, ərazilərdə səliqə-sahman yaradıblar.

Bəli, Masallıda təhsilin keyfiyyətinin, dərsə davamiyyətin yüksək səviyyədə olması, məktəblilərin ictimai fəallığının artırılması daim gündəmdə olan məsələlərdəndir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***